# Göyərçinim

*Mus.: Ağabacı Rzayeva, söz.: Mir Mehdi Seyidzadə*






Göyərçinim sevimli,
Göyərçinim dümağdır.
Göyərçinim səmada
Hələ çox uçacaqdır.

Tükləri pambıq kimi,
Ay yumşaq göyərçinim.
Yaşa azad ölkədə,
Mənim ağ göyərçinim.

Sevimli nəğməsinin
İlk sözü qurtuluşdur.
Sülhün qardaşı, dostu
Bəslədiyim bu quşdur.